Funded by
the European Union

**Sifarişçi təşkilat**: Goethe-Institut e.V.

# Qrant ərizəçiləri üçün təlimatlar

Mədəni İnkişaf Strategiyalarının hazırlanmasına dəstək üçün

**Qrant müsabiqəsi – Konsepsiya sənədlərinin təqdimatı**

Avropa İttifaqı tərəfindən maliyyələşdirilən layihə çərçivəsində

## EU4Culture

Şərq Tərəfdaşlığı ölkələrində iqtisadi artımın və sosial inkişafın aparıcı qüvvəsi kimi mədəniyyətin və yaradıcılığın təşviqi

cra t r fda lar:

GOETHE INSTITUT

ČESKÁ CENTRA
CZECH CENTRES

INSTITUT FRANÇAIS

DANSK KULTUR-INSTITUT
DANISH CULTURAL INSTITUTE

# Mündəricat

İxtisarlar siyahısı ....3
1 Giriş və ümumi məlumat ....4
1.1 EU4Culture ....4
1.2 EU4Culture layihəsini kim həyata keçirir? ....4
1.3 Layihənin məqsədləri ....5
1.4 Sifarişçi təşkilat tərəfindən ayrılan maliyyələşmə ....5
2 Bu qrant müsabiqəsi üzrə qaydalar ....6
2.1 Uyğunluq meyarları ....6
2.1.1 Ərizəçilərin uyğunluğu ....6
2.1.2 Coğrafi və xüsusi uyğunluq meyarları ....7
2.1.3 Fəaliyyətlərin meyarlara uyğunluğu: konsepsiya sənədinə daxil edilə biləcək fəaliyyətlər ....8
2.1.4 Xərclərin məqbulluğu: daxil edilə biləcək xərclər ....9
3 Müraciət qaydası və əməl edilməli olan prosedurlar ....10
3.1 Qrant müsabiqəsi – Konsepsiya sənədi – 1-ci mərhələ ....10
3.2 Konsepsiya sənədinin məzmunu ....10
3.3 Konsepsiya sənədinin hazırlanması və təqdim olunması ....11
3.4 Konsepsiya sənədinin təqdim olunması üçün son tarix ....11
3.5 Konsepsiya sənədi barədə əlavə məlumat ....11
3.6 Ərizənin dili ....12
4 Konsepsiya sənədlərinin qiymətləndirilməsi və seçimi ....12
4.1 Ərizələrin təsdiqlənməsi ....15
5 İlkin qrafik ....15
6 Üfüqi prinsiplər ....16
7 Əlaqə məlumatları və informasiya sessiyaları ....16

# İxtisarlar siyahısı

| | |
|---|---|
| MİS | Mədəni İnkişaf Strategiyası |
| ŞT | Şərq Tərəfdaşlığı |
| Aİ | Avropa İttifaqı |
| QPŞ/R | Qeyri-paytaxt şəhərlər / rayonlar |

# 1 Giriş və ümumi məlumat

Qrant müsabiqəsi (Mədəni İnkişaf Strategiyalarının hazırlanmasına dəstək üçün) Aİ tərəfindən maliyyələşən "EU4Culture" layihəsi çərçivəsində həyata keçirilir.

## 1.1 EU4Culture

"EU4Culture" layihəsi Şərq Tərəfdaşlığı regionuna daxil olan 6 ölkədə - Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Moldova Respublikası və Ukraynada mədəniyyəti artım və sosial inkişafın mühərriki kimi təşviq etmək məqsədini daşıyır. Layihə mədəniyyətin iqtisadi inkişafın təkanverici qüvvəsi kimi rolunun gücləndirilməsinə kömək edəcək. Regionlararası yanaşma vasitəsilə, bu layihə Şərq Tərəfdaşlığı proqramına daxil olan tərəfdaş ölkələrdə mədəniyyətlərarası dialoqu və biliklərin mübadiləsini də təşviq edəcək. Bundan əlavə, "EU4Culture" tənzimləyici proseslərə və birgə iştirakı ehtiva edən siyasi dialoqa dəstək vasitəsilə, mədəniyyət sektorunda yerli idarəçiliyin təkmilləşdirilməsinə töhfə verəcək.

Layihənin diqqət mərkəzində, geniş təsirə malik dayanıqlı siyasətlərin hazırlanması baxımından böyük potensiala malik mədəniyyət, yaradıcı sahələr və mədəni abidə subyektləri dayanır. Layihə Şərq Tərəfdaşlığı regionundakı şəhərlərə "Avropanın Mədəniyyət Paytaxtları" təşəbbüsünün yanaşmasına uyğun olaraq, Mədəni İnkişaf Strategiyasının hazırlanması və həyata keçirilməsində köməklik göstərəcək.

Azərbaycan, Ermənistan, Gürcüstan, Moldova Respublikası və Ukraynadan olan qeyri-paytaxt şəhərlər və rayonlar (QPŞ/R) bu qrant müsabiqəsi çərçivəsində konsepsiya sənədi təqdim etməyə dəvət edilir[1]. Müsabiqədə iştirak üçün uyğunluq meyarları 2-ci bölmədə təqdim edilir. "EU4Culture" layihəsi çərçivəsində iştirak edən beş ŞT ölkəsinin hər birindən beş (5) QPŞ/R seçiləcək (yəni, birlikdə maksimum 25 şəhər və ya rayon). Seçilmiş QPŞ/R tam ərizə formasını hazırlamaq üçün maksimum 1000 avro qrant alacaq. Bu müsabiqə çərçivəsində hər bir iştirakçı ŞT ölkəsi üzrə seçilmiş beş QPŞ/R arasından hər ölkə üzrə üçü (3) seçilərək, Mədəni İnkişaf Strategiyasını hazırlamaq üçün maksimum 30 000 avro qrant alacaq. Nəhayət, hər bir iştirakçı ŞT ölkəsindən bir (1) qeyri-paytaxt şəhər və ya rayon seçilərək, Mədəni İnkişaf Strategiyasını icra etmək üçün maksimum 300 000 avro qrantla təmin ediləcək və həmçinin, aşağıdakı kimi sahələrdə potensialının gücləndirilməsinə dəstək göstəriləcək:

- Beynəlmilləşmə strategiyasının hazırlanması,
- Mədəni müəssisə və idarəetmə,
- Mədəni göstəricilər və statistika.

## 1.2 EU4Culture layihəsini kim həyata keçirir?

Aİ tərəfindən maliyyələşən "EU4Culture" layihəsi Aİ-yə üzv ölkələrin aşağıdakı mədəniyyət müəssisələri tərəfindən həyata keçirilir:

- Goethe İnstitutu (əsas icraçı)
- Çex Mərkəzləri,
- Danimarka Mədəniyyət İnstitutu,
- Gürcüstandakı Fransa İnstitutu.

**Goethe İnstitutu** - Almaniya Federativ Respublikasının qlobal miqyaslı mədəniyyət müəssisəsidir. Özünün 90-dan artıq ölkədə yerləşən 150 filial ofisi vasitəsilə Goethe İnstitutu mədəniyyət və yaradıcılıq sektorunu inkişaf etdirmək və dəstəkləmək üçün siyasi cəhətdən müstəqil olan aparıcı qurumlarla və şəxslərlə uzunmüddətli tərəfdaşlıqlara söykənir.

**Çex Mərkəzləri** – Çex Respublikasını incəsənət və yaradıcılıq sahələrindən tutmuş, Çex elminin nailiyyətləri və innovasiyalarına qədər geniş spektrli mədəni və sosial sahələrdə təmsil edir. Çex Mərkəzləri həmçinin xarici ölkələrdə çex dili kursları təşkil edir. Çex Mərkəzləri beynəlxalq mədəni dialoqun inkişafı üçün platforma kimi çıxış edir və beynəlxalq layihələrdə iştirak edir.

[1] Belarus bu qrant müsabiqəsində iştirak etmir

**Danimarka Mədəniyyət İnstitutu** – uzunmüddətli mədəni əlaqələrin yaradılması üçün əlaqələndirmə mərkəzidir. Beş müəssisəyə, iki hədəf ölkəyə malik olan və bir neçə ölkədə fəaliyyət göstərən DMİ incəsənət, mədəniyyət və biliyin həqiqətən mühüm rol oynadığı dünya proseslərinə yaxın olmağa səy göstərir. İnstitutun məqsədi mədəni dəyər, ideya və təcrübələrin mübadiləsi vasitəsilə beynəlxalq qarşılıqlı anlaşmanı təşviq etməkdir.

**Gürcüstandakı Fransız İnstitutu –** Gürcüstandakı Fransa İnstitutu bu ölkədə 2002-ci ildən mövcud olmuşdur. Gürcüstandakı Fransız İnstitutu Gürcüstanda, o cümlədən Abxaziyada mədəniyyət, dil tədrisi, təhsil və tibbi hazırlıq sahələrində bir sıra layihələr icra etmişdir. O, müntəzəm olaraq EUNIC (Avropa İttifaqı Milli Mədəniyyət İnstitutları) Klasterinə sədrliyi həyata keçirir və Tbilisidə Avropa Dillər Gününü təşkil etmişdir.

## 1.3 Layihənin məqsədləri

Bu qrant müsabiqəsinin **ümumi məqsədi** Azərbaycan, Ermənistan, Gürcüstan, Moldova Respublikası və Ukraynada iqtisadi və sosial inkişafda mədəniyyətin və yaradıcı sahələrin rolunu artırmaqdır.

Bu qrant müsabiqəsinin **xüsusi məqsədi** hədəf şəhər/rayonlarda multimədəni/multietnik aspektlərin qorunması və inkişaf etdirilməsi fonunda, birgə iştirakı ehtiva edən yanaşma və dövlət-özəl sektor dialoqu əsasında mədəni inkişaf strategiyalarının hazırlanması və həyata keçirilməsidir.

**Fəaliyyətlərin ilkin (tam olmayan) siyahısı**:

1) Şəhər və rayonlarda mədəniyyət və yaradıcılıq sektorunda yerli idarəçiliyin yaxşılaşdırılması;
2) Yerli hakimiyyət orqanlarının mədəniyyət siyasətinin idarə edilməsi və yaradıcı sahələrin inkişafı üzrə potensiallarının və resurslarının gücləndirilməsi;
3) Şəhər və rayonlarda mədəniyyət və yaradıcılıq sektorunun dayanıqlı inkişafı üçün idarəetmə strukturlarının yaxşılaşdırılması;
4) Mədəniyyət və yaradıcılıq sektorunun qarşısında duran əsas çağırışların nəzərdən keçirilməsi və təhlili;
5) Başqa vasitələrlə yanaşı, yerli mədəniyyət biznesləri, müvafiq birliklər və vətəndaş cəmiyyəti təşkilatlarının dövlət orqanları ilə siyasi diskursda və konstruktiv dialoqda iştirak imkanlarının araşdırılması və istifadə edilməsi vasitəsilə, müvafiq dövlət orqanları ilə mədəniyyət və yaradıcılıq sektorundakı digər maraqlı tərəflər arasındakı əməkdaşlığın artırılması;
6) Mədəniyyət və yaradıcılıq sektorunun iştirakçılarının keyfiyyətli və dayanıqlı xidmətlər təmin etmək üçün potensiallarının gücləndirilməsi;
7) Şərq Tərəfdaşlığının tərəfdaş ölkələrində mədəniyyət və yaradıcılıq sektoruna aid sahələrdə mədəniyyətlərarası dialoq və bilik mübadiləsinin genişləndirilməsi;
8) Milli, regional, yerli mədəniyyət subyektləri arasında beynəlmiləlləşmə imkanları barədə məlumatlılığın artırılması.

## 1.4 Sifarişçi təşkilat tərəfindən ayrılan maliyyələşmə

Qrant müsabiqəsinin üç mərhələsi üzrə ayrılan maliyyələşmənin ilkin ümumi məbləği 1,975,000 avrodur. Sifarişçi təşkilat ayrılmış bütün vəsaitləri təqdim etməmək hüququnu özündə saxlayır.

Qrant müsabiqəsinin üç mərhələsinin hər biri üzrə ayrılan vəsaitlərin ilkin məbləği aşağıdakı kimidir:

1) 1-ci mərhələ - 25,000 avro: iştirakçı ölkələrin hər birindən maksimum beş (5) QPŞ/R-un hər birinə maksimum 1000 avro verilir;
2) 2-ci mərhələ - 450,000 avro: iştirakçı ölkələrin hər birindən maksimum üç (3) QPŞ/R-un hər birinə maksimum 30,000 avro verilir;
3) 3-cü mərhələ - 1,500,000: iştirakçı ölkələrin hər birindən bir QPŞ/R-na maksimum 300,000 avro verilir.

**Qeyd: 1000 avro məbləğində qrantın təqdim olunduğu ərizəçilər tam ərizə formasını hazırlayıb təqdim etməyi öhdəsinə götürür.**

Son müraciət tarixləri və şərtlər barədə daha ətraflı məlumat üçün zəhmət olmasa bu təlimatın 3-cü bölməsinə nəzər salın.

# 2 Bu qrant müsabiqəsi üzrə qaydalar

## 2.1 Uyğunluq meyarları

Uyğunluq meyarları dörd qrupa bölünür və onlara konsepsiya sənədinin təqdim olunduğu tarixədək əməl edilməlidir. Onlar aşağıdakılarla bağlıdır:

(1) İştirakçılar:
- Baş ərizəçi, yəni, ərizə formasını təqdim edən subyekt (2.1.1),
- Varsa, birgə ərizəçi(lər) (başqa cür göstərilmədiyi təqdirdə, baş ərizəçi və onun birgə ərizəçi(lər)i birlikdə bundan sonra "ərizəçi(lər)" adlandırılır (2.1.1),

(2) Yerləşmə:
- Coğrafi uyğunluq meyarları (2.1.2),
- Xüsusi uyğunluq meyarları (2.1.2);

(3) Fəaliyyətlər:
- Qrantın yönəldilə biləcəyi fəaliyyətlər (2.1.3);

(4) Xərclər:
- Qrant məbləğinin müəyyən edilməsində nəzərə alına biləcək xərc növləri (2.1.4).

### 2.1.1 Ərizəçilərin uyğunluğu

**Baş ərizəçi**

Beş Şərq Tərəfdaşlığı ölkəsinin (Azərbaycan, Ermənistan, Gürcüstan, Moldova Respublikası və Ukrayna) qeyri-paytaxt şəhər və rayonları hazırkı qrant müsabiqəsində iştirak edə və baş ərizəçi qismində çıxış edə bilərlər. Baş ərizəçi ərizə formasını təqdim edən subyektdir.

Qrant üçün uyğun olmaq üçün, baş ərizəçi:

- hüquqi şəxs olmalıdır **və**
- qeyri-kommersiya subyekti olmalıdır **və**
- öz şəhər və ya rayonunda mədəniyyət və/yaxud yaradıcılıq sektorunu təmsil edən regional/yerli dövlət orqanı olmalıdır **və ya**
- öz şəhər və ya rayonunda mədəniyyət və/yaxud yaradıcılıq sektorunu təmsil edən regional/yerli dövlət orqanı adından çıxış edən digər qeyri-kommersiya təşkilatı olmalıdır **və**
- birgə ərizəçi(lər) və nəzdindəki subyekt(lər)lə fəaliyyətin təşkili və idarə edilməsinə birbaşa cavabdeh olmalı, vasitəçi kimi çıxış etməməlidir.

Baş ərizəçi fərdi şəkildə və ya birgə ərizəçi(lər)lə birgə fəaliyyət göstərə bilər, lakin tərəfdaşlıqlar tövsiyə edilir.

Baş ərizəçinin qanuni təmsilçisi "Ərizəçinin Bəyannaməsi"ni imzalamaqla konsepsiya sənədinin göndərilməsini rəsmi şəkildə təsdiqləməlidir.

Əgər qrant müqaviləsi təltif edilərsə, baş ərizçiyə konsepsiya sənədinin uğurlu olması barədə yazılı şəkildə məlumat veriləcək və "Əlaqələndirici" qismində benefisiara çevriləcəkdir. Əlaqələndirici, Sifarişçi təşkilatın əsas tərəf müqabilidir. Əlaqələndirici hər hansı digər birgə benefisiarın (varsa) da adından çıxış edir və onu təmsil edir, fəaliyyətin təşkilini və icrasını əlaqələndirir.

**Birgə ərizəçi(lər)**

Birgə ərizəçilər fəaliyyətin təşkilində və həyata keçirilməsində iştirak edir və onların çəkdikləri xərclər də baş ərizəçinin xərcləri ilə eyni səviyyədə qarşılana bilər.

Birgə ərizəçilər baş ərizəçiyə şamil olunan uyğunluq meyarlarına cavab verməlidir. Bundan əlavə, birgə ərziəçi qismində çıxış edən yerli/regional dövlət orqanları eyni şəhər və ya rayondan olmalıdır – lakin bu öhdəlik digər növ qeyri-kommersiya təşkilatları olan birgə ərizəçilərə şamil edilmir.

Əgər qrant müqaviləsi təltif edilərsə, birgə ərizəçi(lər) (varsa) bu fəaliyyətdə benefisiar(lara) çevriləcək (baş ərizəçi ilə birlikdə).

### 2.1.2 Coğrafi və xüsusi uyğunluq meyarları

Xüsusilə qeyd edirik ki, bu müsabiqə çərçivəsində qeyri-paytaxt şəhərlər və ya rayonlar tərəfindən həyata keçiriləcək tədbirlərdə effektiv çoxmədəniyyətli/multietnik iştirak olmalı və bu tədbirlər hədəf şəhər/ərazilərdə çoxmədəniyyətli/multietnik aspektləri qorumaq və inkişaf etdirmək məqsədi daşımalıdır.

**Coğrafi uyğunluq**

Qrant almaq üçün ərizəçilər həm də bütün aşağıdakı uyğunluq meyarlarına cavab verməlidir:

**(1)** Beş iştirakçı Şərq Tərəfdaşlığı ölkəsinin (Azərbaycan, Ermənistan, Gürcüstan, Moldova Respublikası və Ukrayna) qeyri-paytaxt şəhər və rayonları olmalıdır **və**

**(2)** Beynəlxalq hüquq çərçivəsində tanınan rəsmi hökumətlərin tam nəzarəti altında olan qeyri-paytaxt şəhər və rayonlar olmalıdır **və**

**(3)** Bütün hədəf qruplar üçün qeyri-məhdud əlçatanlığa, eləcə də dayanıqlı və təsdiqlənmiş təhlükəsizlik və mühafizə şəraitinə malik olan qeyri-paytaxt şəhərlər və rayonlar olmalıdır.

Mədəniyyət sahəsində daha əvvəl Aİ tərəfindən maliyyələşdirilmə təcrübəsinə malik olmayan qeyri-paytaxt şəhər/rayonlara üstünlük veriləcək.

**Xüsusi uyğunluq meyarları**

Meyarlara uyğun ölkələrin ölçüsü və əhali sayı, eləcə də şəhər/rayonların inzibati bölgüsü əsasında xüsusi uyğunluq meyarları müəyyən edilmişdir.

Qrant ala bilmək üçün ərizəçilər bütün aşağıdakı uyğunluq meyarlarına cavab verməlidir:

| Ölkə | Xüsusi uyğunluq meyarlarının təsviri |
|---|---|
| Azərbaycan<br>əhalisi: təxminən 10,13 milyon nəfər | Ən azı ***50,000*** və ya daha çox sakini olan qeyri-paytaxt şəhərlər və ya rayonlar |
| Ermənistan<br>əhalisi: təxminən 2,97 milyon nəfər | Ən azı ***15,000*** və ya daha çox sakini olan qeyri-paytaxt şəhərlər və ya rayonlar |
| Gürcüstan<br>əhalisi: təxminən 3,72 milyon nəfər | Ən azı ***15,000*** və ya daha çox sakini olan qeyri-paytaxt şəhərlər və ya rayonlar |
| Moldova Respublikası<br>əhalisi: təxminən 3,31 milyon nəfər | Ən azı ***15,000*** və ya daha çox sakini olan qeyri-paytaxt şəhərlər və ya rayonlar |
| Ukrayna<br>əhalisi: təxminən 41,53 milyon nəfər | Ən azı ***200,000*** və ya daha çox sakini olan qeyri-paytaxt şəhərlər və ya rayonlar |

### 2.1.3 Fəaliyyətlərin meyarlara uyğunluğu: konsepsiya sənədinə daxil edilə biləcək fəaliyyətlər

**Təsvir**

Fəaliyyət bir sıra tədbirlərdən ibarətdir.

**Müddət**

Konsepsiya sənədinin hazırlanması/göndərilməsi üçün planlaşdırılan müddət bir (1) aydır.

Tam ərizə formasının hazırlanması/göndərilməsi üçün planlaşdırılan müddət iki (2) aydır.

Mədəni İnkişaf Strategiyasının hazırlanması üçün planlaşdırılan müddət altı (6) aydır.

Mədəni İnkişaf Strategiyasının həyata keçirilməsi üçün planlaşdırılan müddət iyirmi beş (25) aydır.

**Sahələr və ya mövzular**

Fəaliyyətin aid olmalı olduğu konkret sahələr və ya mövzular yuxarıda 1.3-cü bölmədə təsvir edilir. **Fəaliyyətlər yuxarıdakı 1.3-cü bölmədə sadalanan səkkiz fəaliyyətdən ən azı üçünü ehtiva etməlidir.** Ərizəçilər bu səkkiz fəaliyyətdən hansıların öz layihələrinə daxil edildiyini dəqiq göstərməlidirlər.

**Yer**

Fəaliyyətlər aşağıdakı ölkələrin qeyri-paytaxt şəhər və rayonlarında baş verməlidir: Azərbaycan, Ermənistan, Gürcüstan, Moldova Respublikası və Ukrayna. Bununla belə, xüsusi dəqiqliyə malik fəaliyyətlər (məs. seminar və ya konfrans, tədqiqat səfəri, kampaniyanın/konfransın açılış və ya bağlanış mərasimi) fəaliyyətin təsvirində siyasi və ya əməliyyata aid mülahizələrlə lazımınca əsaslandırıldığı halda digər ölkələrdə keçirilə bilər. Bu cür hallarla bağlı əsaslandırma qiymətləndirmə prosesi zamanı nəzərdən keçiriləcək.

**Fəaliyyət və tədbirlərin növləri**

- **Konsepsiya sənədi mərhələsi** – 5 ŞT ölkəsinin hər birində meyarlara uyğun baş ərizəçilər konsepsiya sənədi təqdim etməyə dəvət olunurlar. Bu konsepsiya sənədi:
    - müvafiq şəhər/rayondakı mədəni və yaradıcı mühiti təsvir etməlidir,
    - mədəni inkişaf strategiyasının gələcəyə baxışını təqdim etməlidir,
- **Tam ərizə forması mərhələsi** – 5 ŞT ölkəsinin hər birində konsepsiya sənədini təqdim etmiş və 1,000 avro məbləğində qrantla təltif edilmiş maksimum beş (5) baş ərizəçi tam ərizə formasını hazırlamağa dəvət ediləcək. Bu tam ərizə forması:
    - müvafiq şəhər/rayondakı mədəni və yaradıcı mühiti daha ətraflı təsvir etməlidir,
    - mədəni inkişaf strategiyasının gələcəyə baxışını daha ətraflı təqdim etməlidir,
    - büdcə parametrlərini təqdim etməlidir (tam ərizə forması üçün olduğu kimi).
- **Mədəni İnkişaf Strategiyası mərhələsi** - 5 ŞT ölkəsinin hər birində tam ərizə formasını təqdim etmiş və 30,000 avro məbləğində qrantla təltif edilmiş maksimum üç (3) baş ərizəçi Mədəni İnkişaf Strategiyasını hazırlamağa dəvət ediləcək.
- **İcra mərhələsi** – 5 iştirakçı ŞT ölkəsinin hər birində seçilmiş bir (1) QPŞ/R Mədəni İnkişaf Strategiyasının icrası üçün 300,000 avro məbləğində qrantla təltif ediləcək.

**İctimailəşdirmə**

Ərizəçi fəaliyyəti Avropa İttifaqının maliyyələşdirdiyini və ya birgə maliyyələşdirdiyini ictimailəşdirmək üçün bütün zəruri addımları atmalıdır. Tam və ya qismən Avropa İttifaqı tərəfindən maliyyələşdirilən fəaliyyətlərdə müvafiq ölkədə və ya regionda fəaliyyətin icrasının səbəbləri və Aİ-nin təmin etdiyi dəstək,

eləcə də bu dəstəyin nəticələri və təsiri barədə xüsusi və ya ümumi auditoriyalarda məlumatlılığı artırmaq məqsədi daşıyan informasiya və kommunikasiya tədbirləri nəzərdə tutulmalıdır.

Ərizəçilər Aİ maliyyəsinin məqsəd və prioritetlərinə əməl etməli və onun ictimailəşdirilməsini təmin etməlidir (baxın: Avropa Komissiyası tərəfindən hazırlanmış və aşağıdakı ünvanda dərc olunmuş "Aİ-nin Xarici Fəaliyyəti üzrə Kommunikasiya və İctimailəşdirmə Təlimatı": https://ec.europa.eu/europeaid/communication-and-visibility-manual-eu-external-actions_en).

EU4Culture layihəsinin Kommunikasiya Strategiyasına uyğun olaraq digər ictimailəşdirmə və kommunikasiya təlimatlarına əməl edilməlidir.

### 2.1.4 Xərclərin məqbulluğu: daxil edilə biləcək xərclər

**Ümumi xərclərin məqbulluğu**

Yalnız məqbul xərclər EU4Culture layihəsi çərçivəsində təqdim olunan qrantla qarşılanacaq. Məqbul və qeyri-məqbul xərclər kateqoriyaları aşağıda göstərilmişdir.

Məqbul xərclər qrantın benefisiarı tərəfindən faktiki olaraq çəkilmiş xərclərdir. Məqbul xərclər və ya məsrəflər aşağıdakı meyarlara cavab verməlidir:

- Onlar qrantın məqsədinə uyğundur və layihənin icrası üçün zəruridir;
- Onlar fəaliyyətin icrası müddətində çəkilir;
- Onlar müvafiq vergitutmanın və qanunvericiliyin tələblərinə uyğundur;
- Onlar ağlabatandır, məqsədəuyğundur, əsaslıdır və düzgün maliyyə idarəetməsi (xüsusilə qənaətcillik və səmərəlilik baxımından) tələblərinə uyğun gəlir;
- 2-ci mərhələ üçün: onlar təxmini ümumi büdcədə göstərilir.

**Məqbul birbaşa xərclər (tam ərizə forması üçün olduğu kimi)**

Fəaliyyətin məqbul birbaşa xərcləri yuxarıda verilmiş məqbulluq şərtlərini lazımi qaydada nəzərə almaqla, fəaliyyətin icrası ilə birbaşa əlaqəli konkret xərclər kimi müəyyənləşdirilə bilən xərclərdir. Məsələn:

- ərizəçi ilə bağlanan əmək müqaviləsi və ya analoji təyinat aktı əsasında işləyən və fəaliyyətə aid olan əməkdaşların xərcləri (faktiki əməkhaqlarından, habelə onların əməkhaqqına daxil edilən sosial sığorta haqları və digər icbari ödənişlərdən ibarətdir);
- sərfiyyat malları (dəftərxana ləvazimatı) və materialların xərcləri (bir şərtlə ki, onlar müəyyənləşdirilə bilən olsun və fəaliyyətə aid olsun);
- birbaşa olaraq fəaliyyətin icrası ilə əlaqəli olan tələblərdən (məlumatların yayılması, fəaliyyət üçün spesifik olan qiymətləndirmə, tərcümə, fotosurətin çıxarılması, korrektə, çoxaltma və s.) irəli gələn xərclər, o cümlədən maliyyə xidmətlərinin xərcləri (xüsusilə pul köçürməsi xərcləri);
- benefisiarın layihə məqsədləri üçün verdiyi xidmət, təchizat və digər iş sifarişlərinin xərcləri; buraya layihənin başlanğıcında və müddəti ərzində keyfiyyət təminatının və layihə planlaşdırma tədbirlərinin xərcləri daxildir;
- əməliyyat ehtiyacları ilə lazımi qaydada əsaslandırıla bilən digər xərclər.

**Məqbul olmayan birbaşa xərclər**

Aşağıdakı xərclər **məqbul hesab edilmir**:

- Borclar və borc xidmətinə görə rüsumlar (faiz);
- İtkilər, borclar və ya potensial gələcək öhdəliklər üçün təminatlar;
- Torpaq və ya binaların alışları;
- Nəqliyyat vasitələrinin alınması;
- Ofis icarəsi (ərizəçi əlavə və xüsusi ofis icarəsinin fəaliyyətin icrası məqsədi üçün zəruri olduğunu sübut edə bilməzsə);
- Valyuta mübadiləsi ilə bağlı itkilər;
- Vergilər, o cümlədən ƏDV (benefisiar və ya birgə benefisiarlar vergiləri geri ala bilmədiyini sübut edə bilməzsə);

- Üçüncü tərəflərə verilən kreditlər;
- Benefisiar tərəfindən göstərilən, artıq Avropa İttifaqı qrantını ehtiva edən digər bir layihə və ya fond vasitəsilə maliyyələşən xərclər (ikiqat maliyyələşdirməyə icazə verilmir);
- Natura formasında müavinətlər (könüllü iş istisna olmaqla);
- Şəxsi heyət xərclərinə aid edilən, fəaliyyət göstəricilərinə görə bonuslar.

***Vacib: Heç bir halda maraqların toqquşmasına yol verilməməlidir!***

İnzibati, maliyyə və əməliyyat potensialı. Meyarlara uyğun olmaq üçün baş ərizəçilər funksional inzibati strukturlara (yəni, mühasibatlıq, satınalma, nəzarət orqanları və s.) sahib olmalıdır. İnzibati, maliyyə və əməliyyat potensialının qiymətləndirilməsi 2-ci mərhələ (tam ərizə mərhələsi) çərçivəsində həyata keçiriləcək və bununla bağlı ətraflı məlumat da qeyd olunan mərhələdə tələb ediləcək.

Bu mərhələdə ərizəçilərin aşağıdakı sənədləri də təqdim etməsi tələb olunacaq:

- Son iki (auditi aparılmış) **maliyyə hesabatları**,
- Yerli qaydalara uyğun olaraq **qeydiyyat/hüquqi status haqqında sənəd**.

Hazırkı 1-ci mərhələdə (konsepsiya sənədi mərhələsi) Aİ-nin istisna etmə meyarları barədə məlumat verilən və maraqların toqquşmasına, eləcə də ikiqat maliyyələşdirməyə yol verilmədiyini bəyan edən **“Ərizəçinin Bəyannaməsi”** təqdim edilməli olacaq (baxın: Aİ-nin Maliyyə Əsasnaməsi, 136-cı maddə - İstisna etmə meyarları və istisnalar barədə qərarlar).

**İkiqat maliyyələşdirmənin istisna edilməsi**

Digər mənbələr hesabına qarşılanmayan xərclər məqbul hesab edilir.

Benefisiar(lar)ın təklif olunan fəaliyyətlər çərçivəsində bəyan etdiyi və Avropa İttifaqının başqa bir fəaliyyəti yaxud işçi proqramı yaxud digər maliyyə mənbəyi hesabına maliyyələşən xərclər məqbul hesab edilməyəcək.

# 3 Müraciət qaydası və əməl edilməli olan prosedurlar

## 3.1 Qrant müsabiqəsi – Konsepsiya sənədi – 1-ci mərhələ

Bu mərhələdə Azərbaycan, Ermənistan, Gürcüstan, Moldova Respublikası və Ukraynanın qeyri-paytaxt şəhərləri və rayonları (QPŞ/R) konsepsiya sənədi təqdim etməyə dəvət olunur. Konsepsiya sənədində baş ərizəçi öz şəhər/rayonunun mədəni və yaradıcılıq mühitini təsvir etməli, mədəniyyət və yaradıcılıq sektorunun inkişafı ilə bağlı siyasət tədbirlərinə ümumi baxışı təqdim etməlidir.

Müvafiq şəhər və ya rayonda mədəniyyət və yaradıcılıq sektorunda mövcud olan müvafiq çağırışları aydın müəyyən edən və təmin edilməli olan ehtiyacları qiymətləndirən bir ideya yaxşı konsepsiya sənədi üçün əsasdır. Baş ərizəçi mədəniyyət və yaradıcılıq sektorunun təmsilçilərini ərizənin hazırlanmasında və sonrakı mərhələdə isə fəaliyyətin icrasında iştiraka dəvət etməlidir.

Baş ərizəçi məqsədləri, əldə edilməli olan nəticələri, icra ediləcək fəaliyyətləri və hədəf qruplarını aydın müəyyən etməlidir. Baş ərizəçi kontekst və mümkün təsir barədə əlavə məlumat əldə etmək üçün araşdırma (məs. ehtiyacların və ya boşluqların təhlili) da apara bilər.




## 3.2 Konsepsiya sənədinin məzmunu

Konsepsiya sənədi çərçivəsində, baş ərizəçi aşağıdakıları etməyə dəvət olunur:

- Mədəniyyət və yaradıcılıq sektorunun şəhər/rayonun cari sosial-iqtisadi mühitinə töhfəsini təsvir etmək;

- Şəhər/rayonun son beş ildə mədəniyyət və ya yaradıcılıq sahəsində təşkil etdiyi böyük sərgi, festival, mərasim və digər irimiqyaslı tədbirlərə aid nümunələr təqdim etmək;
- Hədəf şəhər/ərazilərdə çoxmədəniyyətli/multietnik aspektləri nümayiş etdirmək;
- Mədəniyyət və yaradıcılığın həyata keçirilməsi və təşviqi məqsədi daşıyan əsas infrastruktur, obyektlər və ya digər platformalar və məkanlar barədə məlumat vermək;
- Yerli mədəniyyət və yaradıcılıq sahəsində fəal iştirak edən qeyri-hökumət vətəndaş cəmiyyəti təşkilatlarının rolunu təsvir etmək;
- Mədəniyyət və yaradıcılıq sektoru təmsilçilərinə şəhər/rayonun dövlət orqanları tərəfindən necə dəstək verildiyini izah etmək;
- Şəhər/rayonda mədəniyyəti və yaradıcılığı təşviq etmək məqsədi daşıyan potensialın artırılması proqramları və ya digər təhsil platformaları barədə məlumat vermək;
- Şəhər/rayonda mədəniyyət və yaradıcılıq sektorunun inkişafına dair baxış barədə ümumi məlumat təqdim etmək;
- Şəhər/rayon üçün Mədəni İnkişaf Strategiyası baxımından uyğun ola biləcək əsas siyasət tədbirlərini, əsas hədəf qruplarını və gözlənilən nəticələri müəyyən etmək.

## 3.3 Konsepsiya sənədinin hazırlanması və təqdim olunması

Bu qrant müsabiqəsinə müraciət etmək üçün baş ərizəçilər:

I. Ərizəçi şəhər/rayon və onun qanuni təmsilçisi haqqında məlumat verməlidir (zəhmət olmasa nəzərə alın ki, bu məlumatların **GAP-da - Goethe İnstitutunun Ərizə Portalında** qeydiyyatı hazırkı qrant müsabiqəsi üçün **məcburidir**);

II. Ərizə formasında (konsepsiya sənədi) təqdim olunan təlimatlara və ya yönəldici suallara uyğun olaraq müvafiq məlumatları təqdim etməlidir.

Konsepsiya sənədi "Ərizəçinin Bəyannaməsi" ilə birlikdə baş ərizəçi tərəfindən onlayn qaydada, **GAP Portal** vasitəsilə təqdim olunmalıdır.

**https://gap-online.goethe.de/en-US/cases/378d631f-2ebf-463f-8ff8-e2f2f937a4d9/create**

Konsepsiya sənədi onlayn qaydada göndərildikdən sonra onun qəbulu ilə bağlı baş ərizəçinin GAP hesabına avtomatik təsdiq gələcək.

Şablonları və yardımçı sənədləri qrant müsabiqəsinə start veriləndən (21 may 2021-ci ildə) sonra layihənin veb-saytında əldə etmək olacaqdır.

Texniki problemlərlə qarşılaşsanız, zəhmət olmasa support.gap@goethe.de ilə əlaqə saxlayın.

## 3.4 Konsepsiya sənədinin təqdim olunması üçün son tarix

Konsepsiya sənədinin təqdim olunması üçün son tarix **30/06/2021 günortadır (Mərkəzi Avropa vaxtı ilə 12:00).** Bu son tarixi öz yerli vaxtınıza çevirmək üçün saat qurşaqlarını və qış/yay saat dəyişikliyini nəzərə alan istənilən konvertasiya alətindən istifadə edə bilərsiniz (nümunə üçün baxın).[2] **Baş ərizəçiyə ciddi şəkildə tövsiyə olunur ki, öz konsepsiya sənədini göndərmək üçün sonuncu günə qədər gözləməsin**, çünki internet trafikində yüklənmə və ya internetə qoşulma xətası (o cümlədən elektrikin kəsilməsi və s.) onun göndərilməsində çətinliklərə gətirib çıxara bilər. Sifarişçi orqan qeyd olunan bu kimi çətinliklərə görə baş verən hər hansı gecikməyə görə məsuliyyət daşımır.

Son tarixdən sonra təqdim olunan konsepsiya sənədlərinə baxılmayacaq.

## 3.5 Konsepsiya sənədi barədə əlavə məlumat

EU4Culture komandası ərizələrin hazırlanması fəaliyyəti çərçivəsində potensial ərizəçilərin açıq suallarını aydınlaşdırmaq üçün onlayn informasiya sessiyaları/seminarlar təşkil edəcək. Sessiyalar birinci

[2] Nümunə üçün: http://www.timeanddate.com/worldclock/converter.html.

müsabiqəyə start verilməsindən iki həftə sonra (iyun ayının birinci həftəsi, 2021-ci il) keçiriləcək. Onlayn informasiya sessiyaları yerli dillərdə aparılacaq. Sessiyalar lentə alınacaq və layihənin veb-saytında əlçatan olacaqdır.

Ərizəçilərə bərabər münasibəti təmin etmək üçün sifarişçi orqan baş ərizəçilərin, birgə ərizəçilərin, onlarla bağlı olan subyekt(lər)in, fəaliyyətin və ya konkret tədbirlərin meyarlara uyğunluğu barədə qabaqcadan rəy verə bilməz.

Suallara fərdi cavablar verilməyəcək. Qiymətləndirmə prosedurunun gedişində bütün suallar və cavablar, habelə ərizəçilər üçün digər vacib bildirişlər aşağıdakı saytda dərc olunacaq: GAP Portal https://gap-online.goethe.de/en-US/cases/378d631f-2ebf-463f-8ff8-e2f2f937a4d9/create. Buna görə də dərc olunan suallar və cavablar barədə məlumatlanmaq üçün müntəzəm olaraq yuxarıdakı saytı yoxlamaq məqsədəuyğundur.

## 3.6 Ərizənin dili

EU4Culture layihəsinin rəsmi dili ingilis dilidir. Lakin müsabiqənin birinci mərhələsində ərizələri ŞT ölkələrinin milli dillərində təqdim etməyə icazə verilir.

Yuxarıda müəyyən olunanlardan fərqli dillərdə təqdim edilən ərizələr "meyarlara uyğun olmayan" hesab ediləcək.

# 4 Konsepsiya sənədlərinin qiymətləndirilməsi və seçimi

Bütün təqdim edilən konsepsiya sənədləri aşağıdakılardan ibarət olan standart qiymətləndirmə prosedurundan keçəcək:

(1) Rəsmi və uyğunluq qiymətləndirməsi – ərizələrin rəsmi məqbulluq meyarlarına cavab verib-vermədiyinin yoxlanması
(2) Keyfiyyət qiymətləndirməsi – ərizənin məzmununun qiymətləndirilməsi

Hər bir ərizə rəsmi və uyğunluq qiymətləndirməsindən keçəcək. Ərizəçilərin öz ərizələrini tərtib və təqdim etməzdən əvvəl ümumi və xüsusi meyarlarla tanış olmaları məsləhət görülür.

Rəsmi və uyğunluq qiymətləndirməsi aşağıdakı meyarlara uyğun olaraq həyata keçiriləcək:

| # | Rəsmi və uyğunluq meyarları |
|---|---|
| 1 | Son tarixə əməl olunmuşdur. Əks halda, ərizə avtomatik olaraq rədd ediləcək. (Konsepsiya sənədinin təqdim olunması üçün son tarix barədə məlumat 3.4-cü bölmədə verilmişdir) |
| 2 | Ərizə ingilis dilində və ya ŞT ölkələrinin milli dilində təqdim edilmişdir |
| 3 | Ərizə tam doldurulmuşdur və düzgün şablondan istifadə edilmişdir |
| 4 | Baş ərizəçi ilə bağlı uyğunluq meyarları yerinə yetirilmişdir (2.1.1) |
| 5 | Coğrafi və xüsusi uyğunluq meyarları yerinə yetirilmişdir (2.1.2) |
| 6 | Layihə fəaliyyətləri Avropa İttifaqının digər maliyyə vəsaitləri ilə maliyyələşmir və/ya maliyyələşməyəcək, və Avropa İttifaqından qrant alan digər fəaliyyət və ya işçi proqram tərəfindən maliyyələşmir və/ya maliyyələşməyəcək |
| 7 | **"Ərizəçinin Bəyannaməsi" baş ərizəçi tərəfindən doldurulmuş və imzalanmışdır.** |

Ərizəyə baxılarkən təklif olunan fəaliyyətin 2.1-ci bölmədə qeyd olunan uyğunluq meyarlarına cavab vermədiyi müəyyən olunarsa, ərizə yalnız bu əsasla rədd ediləcək.

Rəsmi uyğunluq yoxlamasından sonra "məqbul" hesab edilən ərizələr keyfiyyət qiymətləndirməsindən keçəcək. Keyfiyyət qiymətləndirməsi xarici ekspert/qiymətləndiricilərdən ibarət müstəqil münsiflər heyəti tərəfindən icra ediləcək.

Konsepsiya sənədinin aşağıdakı seçim meyarları tətbiq olunacaq:

| Meyarlar | Yönəldici suallar |
|---|---|
| **1.** Ərizənin aktuallığı (hədəf şəhər/rayonlarda multimədəni / multietnik aspektlərə əməl olunmaqla) | - Ərizə müsabiqə elanında göstərilən müvafiq müsabiqənin mövzusuna uyğundurmu?<br>- Təkliflər artıq reallaşdırılmış və ya davam edən layihələrə əlavə dəyər qatırmı və bu, kifayət qədər sübut olunurmu?<br>- Hədəf şəhər/rayonlarda multimədəni/multietnik aspektlər necə qorunub saxlanılır? |
| **2.** Mədəniyyət və yaradıcılıq sektorunun rolu və bu sektorda gedən proseslər | - Ərizəçi şəhərdə və ya rayonda mədəniyyət və yaradıcılıq sektorunun cari sosial-iqtisadi mühitdə rolu və bu mühitə töhfəsi necə təsvir edilir?<br>- Ərizə öz şəhərində/rayonunda mədəniyyət və yaradıcılıqla məşğul olmaq və bu sahələri təşviq etmək üçün nəzərdə tutulan əsas infrastrukturu, obyektləri və ya digər platforma və məkanları təsvir edirmi? |
| **3.** Mədəniyyət və yaradıcılıq sektorunda dövlət və özəl sektordan olan maraqlı tərəflərlə əməkdaşlıq | - QHT/VCT-lərin mədəniyyət və yaradıcılıq sahəsində ümumi rolu nədən ibarətdir?<br>- Mədəniyyət və yaradıcılıq sektorunun təmsilçiləri şəhər/rayonun dövlət orqanları tərəfindən necə dəstəklənir?<br>- Ərizəçinin şəhər/rayonunda mədəniyyəti və yaradıcılığı təşviq etmək məqsədi daşıyan hansı mövcud potensialın artırılması proqramları və ya digər təhsil platformaları vardır?<br>- Ərizəçinin şəhər/rayonunda mədəniyyət və yaradıcılıq sektorunun dövlət və ya özəl sektordan olan təmsilçiləri mədəniyyət siyasətinin formalaşdırılması prosesində necə iştirak edirlər? |
| **4.** Ehtiyacların təhlili | - Ərizə öz şəhərində/rayonunda mədəniyyət və yaradıcılıq sektoru ilə bağlı mövcud çağırışlar və ehtiyaclar barədə kifayət qədər məlumat verirmi?<br>- Ərizə ərizəçinin mədəni və yaradıcılıq ekosisteminin yaxşılaşdırılmasına töhfə verə biləcək təklif edilən tədbirlər və ya mümkün optimallaşdırma tədbirləri barədə kifayət qədər məlumat verirmi? |
| **5.** Mədəniyyət və yaradıcılığın inkişafına dair gələcəyə baxış | - Ərizəçinin şəhər/rayonunda mədəniyyət və yaradıcılıq sektorunun inkişafına dair qlobal baxış necə təsvir edilmişdir?<br>- Konsepsiya sənədi ərizəçinin şəhər/rayonunda Mədəni İnkişaf Strategiyası üçün uyğun ola biləcək əsas siyasət tədbirlərini, əsas hədəf qruplarını və gözlənilən nəticələri necə müəyyən edir? |
| **6.** | - Konsepsiya sənədində fəaliyyətlərin ilkin və tam olmayan siyahısında (1.3-cü bölmə) göstərilən fəaliyyətlərdən ən azı 3-ü nəzərdə tutulurmu? |

Bununla yanaşı, üstünlük əvvəllər Aİ tərəfindən mədəniyyət sahəsi üzrə maliyyələşdirilməmiş şəhər/rayonlara veriləcək.

Hər bir meyar aşağıdakı sxemə uyğun olaraq qiymətləndiriləcək:

| **Ballar** | **Qiymətləndirmə** |
|---|---|
| 5 bal | Təklif edilən konsepsiya sənədi tamamilə inandırıcıdır. Konsepsiya sənədi ərizə formasındakı konkret mövzu/sektor/sahələrə və tələblərə çox yüksək dərəcədə |

| | |
|---|---|
| | uyğunluq təşkil edir. Təklif edilən yanaşma reallığa son dərəcə uyğundur, onun effektiv olmaq və fəaliyyətin davamlılığını təmin etmək potensialı çox yüksəkdir. |
| 4 bal | Təklif edilən konsepsiya sənədi tamamilə inandırıcıdır. Konsepsiya sənədi ərizə formasındakı konkret mövzu/sektor/sahələrə və tələblərə yüksək dərəcədə uyğunluq təşkil edir. Təklif edilən yanaşma reallığa uyğundur, onun effektiv olmaq və fəaliyyətin davamlılığını təmin etmək potensialı yüksəkdir. |
| 3 bal | Təklif edilən konsepsiya sənədi kiçik çatışmazlıqlara rəğmən inandırıcıdır. Konsepsiya sənədi ərizə formasındakı konkret mövzu/sektor/sahələrə və tələblərə orta dərəcədə uyğunluq təşkil edir. Təklif edilən yanaşmanın effektiv olmaq və fəaliyyətin davamlılığını təmin etmək ehtimalı və potensialı orta səviyyədədir. |
| 2 bal | Təklif edilən konsepsiya sənədi yalnız müəyyən dərəcədə inandırıcıdır. Konsepsiya sənədi ərizə formasındakı konkret mövzu/sektor/sahələrə və tələblərə orta dərəcədən aşağı səviyyədə uyğunluq təşkil edir. Təklif edilən yanaşmanın effektiv olmaq və fəaliyyətin davamlılığını təmin etmək ehtimalı və potensialı aşağı səviyyədədir. |
| 1 bal | Təklif edilən konsepsiya sənədi yalnız çox məhdud dərəcədə inandırıcıdır. Konsepsiya sənədi ərizə formasındakı konkret mövzu/sektor/sahələrə və tələblərə orta dərəcədən çox aşağı səviyyədə uyğunluq təşkil edir. Təklif edilən yanaşmanın effektiv olmaq və fəaliyyətin davamlılığını təmin etmək ehtimalı və potensialı çox aşağı səviyyədədir. |
| 0 bal | Təklif edilən konsepsiya sənədi inandırıcı deyildir. Konsepsiya sənədi ərizə formasındakı konkret mövzu/sektor/sahələrə və tələblərə demək olar ki, uyğunluq təşkil etmir. Təklif edilən yanaşma reallığa uyğun deyildir, onun effektiv olmaq və/ya fəaliyyətin davamlılığını təmin etmək potensialı yoxdur. |

Qiymətləndirmənin nəticələri əsasında xarici qiymətləndiricilər aşağıdakı kateqoriyalara uyğun olaraq layihə təkliflərinə dair tövsiyə hazırlayacaq:

| Tövsiyə kateqoriyası | Təsviri |
|---|---|
| **A** | **Təsdiqlənmə üçün tövsiyə edilən layihələr**<br>- yəni, qrant müsabiqəsinin meyarlarına ən yüksək səviyyədə cavab verən keyfiyyətli ərizələr. |
| **B** | **Müəyyən şərtlərlə təsdiqlənmə üçün tövsiyə edilən layihələr**<br>- yəni, meyarlara cavab verən, lakin aydınlaşdırma prosesi zamanı aradan qaldırılması mümkün olan bəzi çatışmazlıqların müşahidə olunduğu ərizələr. |
| **C** | **Təsdiqlənmə üçün tövsiyə edilməyən layihələr**<br>- yəni, Proqram tərəfindən müəyyən olunmuş konkret strateji və əməliyyat tələblərinə cavab verməyən layihələr. |

Hər hansı bir səhv və ya konsepsiya sənədinə dair təlimatlarla ciddi uyğunsuzluq konsepsiya sənədinin rədd edilməsi ilə nəticələnə bilər.

Aydınlaşdırmalar yalnız təqdim olunan məlumatlar obyektiv qiymətləndirmə aparmaq üçün yetərli olmadıqda tələb ediləcək.

Uyğunluq və keyfiyyət qiymətləndirməsinin nəticəsi yekun qərarın qəbulu üçün layihənin Rəhbər Komitəsinin İdarə Heyətinə təqdim ediləcək.

## 4.1 Ərizələrin təsdiqlənməsi

Konsorsium İdarə Heyəti keyfiyyət qiymətləndirməsi əsasında ərizələrin yekun seçimini həyata keçirir. Konsorsium İdarə Heyəti müqavilənin bağlanması prosesi zamanı və ya başqa cür nəzərdə tutulmadığı halda son hesabatla birlikdə ərizəçinin təmin etməli olduğu müəyyən tələblər təyin edə bilər.

Konsorsium İdarə Heyəti təqdim edilmiş ərizələrin təsdiqi proseduru baxımından üç əsas seçimə malik olacaq:

1. Ərizəni təsdiq etmək;
2. Ərizəni müəyyən tələblərlə/aydınlaşdırmalarla təsdiq etmək;
3. Ərizəni rədd etmək.

Rəhbər Komitənin İdarə Heyətinin təsdiqindən və benefisiar(lar)a rəsmi bildirişin verilməsindən sonra müqavilənin bağlanması (zərurət olarsa, aydınlaşdırma proseduru) və qrantın təltif edilməsi mərhələsi başlayacaq.

# 5 İlkin qrafik

Qrant müsabiqəsi çərçivəsində ilkin qrafik aşağıdakı kimidir:

| | TARİX | SAAT[3] |
|---|---|---|
| Qrant müsabiqəsinin başlanması – konsepsiya sənədi (1-ci mərhələ) | 21 may 2021 | |
| Sifarişçi orqandan hər hansı aydınlaşdırmaların tələb olunması üçün son tarix | 4 iyun 2021 | |
| Konsepsiya sənədi haqqında onlayn informasiya sessiyası | 7 iyun 2021 | 10:00 |
| Konsepsiya sənədi haqqında onlayn informasiya sessiyası | 8 iyun 2021 | 10:00 |
| Sifarişçi orqan tərəfindən aydınlaşdırmaların verilməsi üçün son tarix | 11 iyun 2021 | |
| Konsepsiya sənədlərinin təqdim olunması üçün son tarix | 30 iyun 2021 | 12:00 |
| Açılış, inzibati yoxlamalar və konsepsiya sənədlərinin qiymətləndirilməsi barədə baş ərizəçilərə məlumat verilməsi | iyul 2021 | |
| Tam ərizələrin təqdim olunmasına dəvət (2-ci mərhələ) (iştirakçı ŞT ölkələrinin hər birindən seçilmiş beş QPŞ/R tam ərizələri təqdim etməyə dəvət olunur) | 2 avqust 2021 | |
| Sifarişçi orqandan tam ərizələrlə bağlı hər hansı aydınlaşdırmaların tələb olunması üçün son tarix | 13 avqust 2021 | |
| Tam ərizələr haqqında onlayn informasiya sessiyası | 16 avqust 2021 | 10:00 |
| Tam ərizələr haqqında onlayn informasiya sessiyası | 17 avqust 2021 | 10:00 |
| Sifarişçi orqan tərəfindən aydınlaşdırmaların verilməsi üçün son tarix | 6 sentyabr 2021 | |
| Tam ərizələrin təqdim olunması üçün son tarix | 30 sentyabr 2021 | 12:00 |
| Tam ərizələrin qiymətləndirilməsi barədə baş ərizəçilərə məlumat verilməsi | noyabr 2021 | |
| Mədəni İnkişaf Strategiyasını hazırlamaq üçün vəsaitlərin ayrılması barədə bildirişin verilməsi (3-cü mərhələ) (İştirakçı ŞT ölkələrinin hər birindən seçilmiş üç QPŞ/R mədəni inkişaf strategiyasını hazırlamağa dəvət olunur) | noyabr 2021 | |
| Mədəni inkişaf strategiyasının hazırlanması və təqdim olunması üçün son tarix | aprel 2022 | |
| Mədəni inkişaf strategiyalarının qiymətləndirilməsi barədə baş ərizəçilərə məlumat verilməsi | iyun 2022 | |
| Mədəni İnkişaf Strategiyasını həyata keçirmək üçün vəsaitlərin ayrılması barədə bildirişin verilməsi (4-cü mərhələ) (İştirakçı ŞT | iyul 2022 | |

[3] Mərkəzi Avropa vaxtı

| | | |
|---|---|---|
| ölkələrinin hər birindən seçilmiş bir QPŞ/R mədəni inkişaf strategiyasını həyata keçirməyə dəvət olunacaq) | | |
| Müqavilənin bağlanması | iyul 2022 | |
| *Mədəni inkişaf strategiyasının icrasının başlanması* | avqust 2022 | |
| *Mədəni inkişaf strategiyasının icrasının başa çatması* | sentyabr 2024 | |

# 6 Üfüqi prinsiplər

Bərabər imkanların yaradılması və ayrı-seçkiliyə yol verilməməsi Aİ siyasətinə və EU4Culture layihəsinə uyğun olan və onların ayrılmaz hissəsi olan iki əsas üfüqi prinsipdir Dəstəklənən ərizələr/layihələr bu prinsipləri mümkün qədər təşviq etməlidir. EU4Culture layihəsi öz fəaliyyətlərində, məhsullarında və nəticələrində bərabər imkanların yaradılmasını və cinsi, irqi və ya etnik mənsubiyyət, din və ya əqidə, əlillik, yaş və ya cinsi orientasiya əsasında ayrıseçkiliyə yol verilməməsini, eləcə də kişilərlə qadınların bərabərliyini təşviq edir. Layihələr bu prinsiplər baxımından öz ümumi təsirlərini də nəzərə almalıdır. Mədəni inkişaf strategiyasını hazırlayarkən, baş ərizəçilər bu üfüqi prinsiplərin layihə fəaliyyətlərinə və məhsullarına necə inteqrasiya edildiyini nümayiş etdirməyə dəvət olunacaqlar. Bununla yanaşı, ərizələrdə bu prinsiplərə əməl etmək üçün əməliyyat səviyyəsində həyata keçirilməsi planlaşdırılan konkret tədbirlərin vurğulanması da gözlənilir. Üfüqi prinsiplərin təşviqi layihələrin maliyyələşmə üçün seçimində müsbət amil kimi nəzərə alınacaq.

# 7 Əlaqə məlumatları və informasiya sessiyaları

Sənədlərin təqdim olunması prosesində texniki çətinliklərlə qarşılaşsanız, eu4culture@goethe.de ilə əlaqə saxlayın.

Ərizə prosesi ilə bağlı hər hansı sualınız olarsa, Milli Koordinatorumuzla əlaqə saxlayın:

| Ölkə | Əlaqələndirici şəxs | Elektron poçt |
|---|---|---|
| Azərbaycan | Firuzə Bağır | Firuza.Baghir.extern@goethe.de |
| Ermənistan | Marine Karoyan | Marine.Karoyan.extern@goethe.de |
| Gürcüstan | Xatiya Tsoxonelidze | Khatia.Tchokhonelidze@goethe.de |
| Moldova Respublikası | Eugen Harabara | Eugeniu.harabara.extern@goethe.de |
| Ukrayna | Darya Moskaleviç | Daria.Moskalevych@goethe.de |

EU4Culture komandası ərizələrin hazırlanması fəaliyyəti çərçivəsində potensial ərizəçilərin açıq suallarını aydınlaşdırmaq üçün onlayn informasiya sessiyaları/seminarlar təşkil edəcək. Sessiyalar birinci müsabiqəyə start verilməsindən iki həftə sonra (iyun ayının birinci həftəsi, 2021-ci il) keçiriləcək. Onlayn informasiya sessiyaları yerli dillərdə aparılacaq. Sessiyalar lentə alınacaq və layihənin veb-saytında əlçatan olacaq.

**Sizin ərizələrinizi səbirsizliklə gözləyir və sizə uğurlar arzu edirik!**

## *Əlavə 1 – Müraciət strukturu*

**Müraciət onlayn olaraq GAP portalı üzərindən mümkün olacaq (Goethe Institut Application Portal)**

**Qrant müsabiqəsi: Konsepsiya sənədi**

**ŞT ölkələrindən** *(Ermənistan, Azərbaycan, Gürcüstan, Moldova Respublikası, Ukrayna)* **NCC/T (qeyri paytaxt şəhər və rayonlar) üçün Mədəni İnkişaf Strategiyası**

---

Konsept sənədi:

**Əlaqə məlumatları: Əsas müraciətçi**

| ***Əsas müraciətçi haqqında məlumat:*** | |
|---|---|
| Ölkə | • Ermənistan / Azərbaycan / Gürcüstan / Moldova Respublikası / Ukrayna |
| Şəhərin adı | |
| Şəhərin əhalisi | |
| Müraciət edən qurumun adı | |
| Telefon nömrəsi | |
| Elektron poçt ünvanı | |
| Veb səhifə | |
| ***Əlaqə:*** | |
| **Şəhərin rəsmi nümayəndəsi** | |
| Xitab forması | • Xanım / Cənab / digər |
| Soyadı: | |
| Adı: | |
| Ünvan: | |

| | |
|---|---|
| Telefon nömrəsi: | |
| Elektron poçt ünvanı: | |
| **Müraciətin hazırlanmasında məsul şəxs (Əlaqələndirici şəxs)** | |
| Xitab forması | • Xanım / Cənab / digər |
| Soyadı: | |
| Adı: | |
| Müəssisədə tutduğu vəzifə | |
| Ünvan: | |
| Telefon nömrəsi: | |
| Elektron poçt ünvanı: | |
| Digər mühüm məlumatlar: | |

## ŞƏHƏRİN / RAYONUN TƏSVİRİ

| ŞƏHƏRİN QISA TƏSVİRİ - İNGİLİS VƏ YA YERLİ DİLDƏ |
|---|
| **ŞƏHƏRİN / RAYONUN TƏSVİRİ** |
| *Xahiş edirik, şəhərin/rayonun əsas coğrafi, demoqrafik, mədəni və iqtisadi xüsusiyyətlərini təsvir edin; idarəetmə quruluşu, əsas mədəniyyət obyektləri və infrastrukturları, beynəlxalq/ regional əməkdaşlıq və s.* |
| |

*Maksimum simvol sayı:* **1000**

| MƏDƏNİYYƏT VƏ YARADICI SEKTORUN ROLU VƏ İNKİŞAFI |
|---|
| *Zəhmət olmasa şəharinizin/rayonunuzun mədəniyyət və yaradıcılıq sektorunun mövcud sosial-iqtisadi mühitə töhfəsini təsvir edin. Xahiş edirik, son beş ildə mədəniyyət və ya yaradıcılıq sahəsində şəhər/rayon* |

| |
|---|
| *tərəfindən təşkil olunan böyük yarmarkalar, festivallar, konvensiyalar və digər geniş miqyaslı tədbirlərin nümunələrini verin.* <br><br> *Zəhmət olmasa mədəniyyət və yaradıcılığı tətbiq və təbliğ etməyə yönəlmiş əsas infrastrukturu, obyektləri və ya digər platformaları və sahələri təsvir edin.* |
| |

*Maksimum simvol sayı:* ***2000***

| **MƏDƏNİYYƏT VƏ YARADICI SEKTORDA İCTİMAİ VƏ ÖZƏL MARAQLI TƏRƏFLƏR** |
|---|
| *Zəhmət olmasa, mədəniyyət və yaradıcılıq sahəsində fəaliyyət göstərən qeyri-hökumət və vətəndaş cəmiyyəti təşkilatlarının rolunu təsvir edin. Zəhmət olmasa, mədəniyyət və yaradıcılıq sektorunun təmsilçilərinə şəhərinizin/rayonunuzun dövlət orqanları tərəfindən necə dəstək verildiyini izah edin. Xahiş edirik, şəhərinizdə/rayonunuzda mədəniyyət və yaradıcılığı təşviq etmək üçün potensial gücləndirilməsi proqramlarını və ya digər təhsil platformalarını təsvir edin. Uyğun olarsa, xahiş edirik mədəniyyət və yaradıcı sektorun özəl və ya ictimai nümayəndələrinin şəhərinizdə/rayonunuzda mədəniyyət siyasətinin hazırlanması prosesində necə iştirak etdiklərini təsvir edin.* |
| |

*Maksimum simvol sayı:* ***2000***

| **MƏDƏNİYYƏT VƏ YARADICILIQ SEKTORU İLƏ BAĞLI TƏLƏBLƏR VƏ PROBLEMLƏR** |
|---|
| *Zəhmət olmasa, şəhərinizdə/rayonunuzda mədəniyyət və yaradıcılıq sektoru ilə bağlı mövcud problemləri və ehtiyacları müəyyənləşdirin. Xahiş edirik, mədəni və yaradıcı ekosistemin yaxşılaşdırılmasına və şəhərinizin/rayonunuzun davamlı sosial-iqtisadi inkişafı üçün mövcud mədəniyyət və yaradıcılıq potensialının artırılmasına kömək edə biləcək müdaxilələr və ya mümkün optimallaşdırma tədbirləri təklif edəsiniz.* |
| |

*Maksimum simvol sayı:* ***300***

## MƏDƏNİ İNKİŞAF STRATEGİYASI

*Xahiş edirik, şəhərinizdə/rayonunuzda mədəniyyət və yaradıcılıq sektoru üçün qlobal inkişaf vizyonunu qısaca təsvir edəsiniz. Zəhmət olmasa, şəhərinizin/rayonunuzun Mədəni İnkişaf Strategiyası ilə əlaqəli ola biləcək əsas siyasi tədbirləri, əsas hədəf qruplarını və gözlənilən nəticələri müəyyənləşdirin.*

*Maksimum simvol sayı:* ***300***

## ŞƏHƏR / RAYON HAQQINDA DİGƏR MƏLUMATLAR

*Son beş ildə şəhər başqa bir fond (beynəlxalq, AB və ya milli fondlar) üçün müraciət edibmi?*

- *BƏLİ*
- *XEYR*

*Varsa, xahiş edirik, qısa məlumat və həyata keçirilmiş fəaliyyətlərin linkini verin*

## ƏLAVƏ SƏNƏDLƏR

| | |
|---|---|
| Şəxsi bəyannamə | ***Şəxsi bəyannamə formasını yükləyin*** |
| Büdcə forması | ***Büdcə formasını yükləyin*** |